# Goranboy: inkişaf möhkəm təməl üzərindədir

*Baxın, Goranboy rayonunda son illər ərzində nə qədər böyük işlər görülmüşdür. Goranboy rayonunda bir neçə yol layihəsi icra edilmişdir. Bütövlükdə, bu layihələrin icrası nəticəsində artıq rayon əhalisinin 60 faizi təmir edilmiş yollarla təmin edilib. Goranboy rayonunda elektrik xətləri çəkilib, elektrik təchizatı həll olunub, iki yarımstansiya inşa edilib. Ev təsərrüfatlarının 95 faizi qazlaşdırılıb, içməli su təchizatı məsələsi hələ 4 il bundan əvvəl öz həllini tapıb, 40-dan çox məktəb təmir edilib və tikilibdir.*

*İlham ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

**❐ Bəzən belə də olur: hər hansı sahəyə təyin olunmuş rəhbər ilk vaxtlar bütün imkan və ehtiyat mənbələrini işə salır, yeni-yeni təşəbbüslərlə çıxış edir və ədalət naminə deyək ki, müəyyən uğurlar əldə edir. Ancaq təəssüf ki, bu canlanma və irəliləyişin ömrü uzun çəkmir, getdikcə sürət aşağı düşür, əvvəlki fəallıqdan əsər-əlamət qalmır.**



Goranboy rayonunda isə vəziyyət tamamilə fərqlidir. Daha doğrusu, 10 il bundan əvvəl götürülmüş sürət bu gün də eyni qaydada davam etdirilir. Əsas cəhət odur ki, inkişaf və irəliləyiş bütün sahələri əhatə edir, ardıcıl və sistemli xarakter daşıyır. Nəticə də göz qabağındadır. Son illər tikilib başa çatdırılmış və hazırda şəhərə xüsusi gözəllik verən müxtəlif təyinatlı obyektlərdən bəzilərinin adlarını çəkək: Heydər Əliyev Mərkəzi, Bayraq muzeyi, YAP rayon təşkilatı üçün inzibati bina, Şahmat məktəbi, şəhər 3 saylı məktəb, 54 mənzilli yaşayış binası… Biz tam olmayan bu siyahıya Dəliməmmədli – Qaradağlı – Şadılı, Dəliməmmədli – Hazırəhmədli, Goran-Naftalan, Dəliməmmədli – Həmənli, Dəliməmmədli – Quşçular – Faxralı – Qurbanzadə – Alpout, Dəliməmmədli – Muzdurlar – Qırıqlı avtomobil yollarının əsaslı şəkildə yenidən qurulmasını da əlavə edə bilərik. Şəhərdə içməli su və kanalizasiya layihəsi uğurla başa çatdırılmış, Murovdan 55 kilometrlik içməli su xətti çəkilmişdir. 10 il bundan əvvəl rayon üzrə qazlaşdırmanın səviyyəsi 68 faiz idi. Bu gün isə həmin rəqəm 95 faiz təşkil edir.



Zahirən adama elə gəlir ki, istər rayon mərkəzində, istərsə də qəsəbə və kəndlərdə artıq bütün sosial layihələr həyata keçirilib, daha görüləsi bir iş qalmayıb. Bəli, bu yalnız zahirən belədir. Əslində isə bu gün Goranboy şəhəri, eləcə də digər yaşayış məntəqələri, sözün həqiqi mənasında, nəhəng tikinti meydançasını xatırladır. Elə isə həmin layihələrdən bəzilərini bir daha xatırladaq: 5 hektar sahədə inşa edilən yeni mərkəzi xəstəxana, Olimpiya-İdman Kompleksi, xalça fabriki, uşaq və ailələrə dəstək mərkəzi, 40 ailəlik yeni beşmərtəbəli yaşayış binası… Bundan başqa, Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında, İsmət Qayıbov, Səməd Vurğun, Vüqar Bayramov, Rövşən Mustafayev, Mirqalib Nağıyev, Məmməd Məhərrəmov və başqa küçələrdə aparılan təmir, bərpa və yenidənqurma tədbirlərini də yada salmayılıq. Yuxarıda dediyimiz fikrin əyani təsdiqi bax, budur – Goranboyda digər sahələrlə yanaşı, tikinti-quruculuq və abadlıq işləri bu gün də eyni sürət və keyfiyyətlə davam etdirilir.





Biz bu yazı üzərində işləyərkən yeni tikintilərə baş çəkdik, aparılan abadlıq-quruculuq tədbirləri ilə yaxından tanış olduq, rayon ağsaqqalları, ziyalılar, gənclərlə görüşüb söhbət etdik. Onlar, əlbəttə, görülüb başa çatdırılan və hazırda davam etdirilən bu layihələri böyük minnətdarlıq və məmnuniyyət hissi ilə qarşıladıqlarını dilə gətirdilər.

Goranboylular, eyni zamanda, haqlı olaraq bütün bu irimiqyaslı infrastruktur layihələrini ölkə Prezidenti İlham Əliyevin bölgələrə, o cümlədən Goranboya olan tarixi səfərləri, göstərdiyi gündəlik diqqət və qayğı ilə əlaqələndirirlər.

Qeyd etmək yerinə düşər ki, son illər Prezident Goranboya 6 dəfə səfər etmişdir. Sonuncu – bu il iyun ayının 5-də olan səfər çərçivəsində ölkə rəhbəri Bayraq muzeyinin, “Regional Aqropark”ın, hər biri 40 meqavat amper olan iki transformatorun quraşdırıldığı 110/35/10 kilovoltluq “Dəliməmmədli yarımstansiyası”nın, Şəmkir-Samux-Goranboy magistral suvarma kanalının ikinci növbəsinin İpək Yolu ilə kəsişmə qurğusunun, ondan sonrakı 4,95 kilometrlik hissəsinin və başqa obyektlərin açılış mərasimlərində iştirak etmişdir.

Həmin tarixi səfər, keçirilən görüş və söhbətlər, qarşıya qoyulan konkret vəzifələr, məsləhət və tövsiyələr rayon ictimaiyyəti arasında böyük ruh yüksəkliyi yaratmış, onlara əlavə güc və stimul vermişdir. Təsadüfi deyil ki, səfərdən ötən müddət ərzində aparılan tikinti-quraşdırma və abadlıq işlərinin sürəti daha da artmış, inkişaf və irəliləyiş bütün sahələri əhatə etmiş, yeni maraqlı təşəbbüslər meydana çıxmışdır.

Heç şübhəsiz ki, yerlərdə işin düzgün təşkilini, təşkilat-idarəetmə məsələlərinin daim təkmilləşdirilməsini, yeni, maraqlı formaların yaradıcılıqla tətbiqini də ayrıca qeyd etmək lazımdır.



Rayon icra hakimiyyəti və onun yerli strukturları insan amilini, onun vacib sosial ehtiyaclarının vaxtında və həssaslıqla yerinə yetirilməsini daim diqqət mərkəzində saxlayır, kadrlardan tapşırılmış iş üçün ciddi intizam və məsuliyyət tələb olunur.

İndi Goranboyda gəzməli, görməli, abad, yaraşıqlı istirahət mərkəzləri, park və xiyabanlar çoxdur. Onlardan biri də Heydər Əliyev adına parkdır. Bura rayon sakinlərinin ən çox sevdiyi bir məkandır. Təsadüfi deyil ki, günün istənilən vaxtında park izdihamlıdır. Sakinlərlə görüşmək, arzu və düşüncələri ilə tanış olmaq maraqlı idi.

**Tarıyel Abbasov:**

– İndi şəhərimizin hansı guşəsinə getsəniz, belə gözəl, mənzərəli yerlər görərsiniz. Həqiqətən, son illər istər rayon mərkəzi, istərsə də digər yaşayış məntəqələri öz simasını tanınmaz dərəcədə dəyişmiş, daha yaraşıqlı və müasir olmuşdur. Düzü, əvvəllər dincəlməyə, boş vaxtımızı keçirməyə, əylənməyə münasib bir yer tapa bilmirdik. İndi isə gördüyünüz kimi, hər addımda yaşıllıq zolaqları, bulaqlar, fəvvarələr, park və xiyabanlardır. Biz əlbəttə, bütün bunlara görə, ilk növbədə, ölkə Prezidenti İlham Əliyevə öz dərin minnətdarlığımızı bildiririk.

**İsgəndər Çəkiliyev:**

– Demək olar ki, hər gün ailə üzvlərimizlə, yaxın dostlarımızla şəhərimizin gözəl guşələrində, xüsusilə, Heydər Əliyev adına parkda gəzməyə, dincəlməyə gəlirik. Burada yaradılan şərait hamımızın ürəyincədir. O da sevindirici haldır ki, bizim istirahət mərkəzlərinə qonşu rayonlardan da gələnlər çoxdur. İnanırıq ki, şəhərimizin sabahı daha abad və gözəl olacaqdır.

Yazını bu günlərdə doqquz ayın yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş yığıncaqda səslənən bir faktla yekunlaşdırmaq istəyirik. Rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyevin hesabat məruzəsində oxuyuruq: “Cari ilin yanvar-sentyabr aylarında bütün maliyyə mənbələri hesabına əsas kapitala 6661 min manat investisiya qoyulmuşdur ki, ondan da 5596 min manatı tikinti-quraşdırma işlərinə sərf olunmuşdur”.

Deməli, daha böyük uğurlar hələ irəlidədir.

*Ziyəddin SULTANOV,*
*“Xalq qəzeti”nin*
*bölgə müxbiri*